# KİTABLAR, RƏYLƏR...

## İLK MONOQRAFİYANIN UĞURU

XX əsrin 50-90-cı illərində Naxçıvan ədəbi-mədəni mühitinin görkəmli simalarından biri olan Azərbaycan Respublikasının Əməkdar incəsənət xadimi, şair, nasir, dramaturq və tərcüməçi Hüseyn Razinin ədəbi irsinin bir hissəsini də publisistik əsərləri təşkil edir. H.Razinin publisistik yazıları hələ gənc yaşlarından mətbuatda görünməyə başlamışdı. Onun məqalə və oçerklərinin əksəriyyəti əməkdaşı olduğu "Şərq qapısı" qəzetində işıq üzü görmüşdür. Bununla yanaşı onun yazıları Bakıda nəşr olunan bir sıra qəzet və jurnallarda, həmçinin müxtəlif kitab, almanax və toplularda çap olunmuşdur.

İndiyədək H.Razinin həyat yolu və yaradıcılığı haqqında xeyli məqalə, bir neçə diplom işi yazılmış, Nadir İsmayılov "Hüseyn Razinin yaradıcılıq yolu" mövzusunda fəlsəfə doktorluğu dissertasiyası müdafiə etmişdir. Onun eyni adlı monoqrafiyası da çap olunmuşdur. Jurnalist Rafiq Odayın tərtib etdiyi "Xatirələr işığında" (2004) və filologiya elmləri doktoru Fərman Xəlilovun "Hüseyn Razi. Biblioqrafiya" (2015) adlı kitabları da şairə həsr olunan dəyərli mənbələrdir.

H.Razinin ədəbi irsinin öyrənilməsi işi bu gün də davam etdirilir. Bu baxımdan gənc tədqiqatçı Sahab Əliyevanın "Əcəmi" NPB tərəfindən çap edilən "Hüseyn Razinin publisistikası" adlı monoqrafiyası öz aktuallığı və yeniliyi ilə diqqəti cəlb edir. Monoqrafiyanın elmi redaktoru filologiya elmləri doktoru Fərman Xəlilov, rəyçiləri AMEA-nın müxbir üzvü, filologiya elmləri doktoru, professor Əbülfəz Quliyev və filologiya üzrə fəlsəfə doktoru, dosent Ramiz Qasımovdur.

Monoqrafiyanın əsas hissəsi "Giriş", iki fəsil və "Nəticə"dən ibarətdir. "Əlavələr" hissəsində isə H.Razinin "Şərq qapısı" qəzetinin müxtəlif illərdə nəşr olunan nömrələrində çıxan 15 məqaləsi daxil edilmişdir.

"Giriş"də müəllif H.Razinin ədəbi-bədii yaradıcılığı, xüsusilə publisistikası haqqında ümumiləşdirilmiş dolğun məlumat verməyə nail olmuşdur.

Birinci fəsil "İctimai-siyasi məzmunlu məqalələri" adlanır. Bu fəsildə müəllif sayca xeyli çox olan belə məqalələri müxtəlif mövzular üzrə qruplaşdıraraq təhlilə cəlb etmişdir. Müəllifin H.Razinin ictimai-siyasi məzmunlu məqalələri haqqında fikir və mülahizələri öz yeniliyi və orijinallığı ilə diqqəti cəlb edir. Onun araşdırmalarından aydın olur ki, H.Razinin həmin yazıları Naxçıvan Muxtar Respublikasının tərəqqisi, gözəlliyi, sənaye, kənd təsərrüfatı və mədəni quruculuq sahəsindəki nailiyyətləri, Cənubi Azərbaycan, Arpaçay dəryaçasının inşası, İkinci Dünya müharibəsi və orada iştirak edən naxçıvanlı döyüşçülər, beynəlxalq məsələlər; ədəbiyyat, incəsənət və mədəniyyət məsələləri, Dağlıq Qarabağ və onun ətrafında baş verən hadisələr, 90-cı illərin qanlı qırğınları kimi öz dövrü üçün aktual olan mövzulara həsr edilmişdir.

Monoqrafiyanın "Ədəbi-tənqidi məqalələri" adlı ikinci fəslində müəllif H.Razinin Azərbaycan ədəbiyyatının görkəmli söz sənətkarları, Naxçıvan ədəbi mühitinin yetişdirdiyi gənc yazarların yaradıcılığı, keçmiş Sovet İttifaqı xalqları və dünya ədəbiyyatının ayrı-ayrı nümayəndələri, teatr sənəti, tanınmış incəsənət xadimlərinin həyat və yaradıcılıq yolu, teatr tamaşaları və müxtəlif kitab və monoqrafiyalar haqqında yazdığı məqalə və resenziyaları tədqiqat obyektinə çevirmişdir.

H.Razinin müxtəlif illərdə "Azərbaycan müəllimi", "Azərbaycan gəncləri", "Kommunist", "Azərbaycan pioneri", "Möhtəşəm Azərbaycan", "Güney", "Ədəbiyyat və incə-

sənət", "Sovet kəndi", "Leninçi", "Şərq qapısı", "Sovet Naxçıvanı", "Советская Нахичевань", "Бакинский рабочий" qəzetlərində, "Kənd həyatı", "Azərbaycan", "Ulduz", "Elm və həyat" jurnallarının səhifələrində dərc olunan publisistik məqalələrinin sayı 1000-dən çoxdur. Monoqrafiyaya ön söz yazan F.Xəlilovun qeyd etdiyi kimi "Bunları tapmaq, oxumaq və təhlilə cəlb etmək böyük səbir və zəhmət tələb edir. S.Əliyeva belə bir zəhmətə qatlaşaraq şairin, demək olar ki, mövzu ilə bağlı bütün yazılarını gözdən keçirmiş, onların məzmunu və mahiyyəti haqqında dəyərli elmi qənaətlərə gəlmişdir".

H.Razinin monoqrafiyanın "Əlavələr" hissəsinə daxil edilən 15 publisistik yazısı onun jurnalistlik səriştəsi haqqında oxucularda əyani təsəvvür yarada bilir.

S.Əliyevanın "Hüseyn Razinin publisistikası" monoqrafiyası təkcə H.Razinin ədəbi irsinin öyrənilməsində yox, həm də Naxçıvan ədəbi mühitində meydana çıxan publisistikanın inkişaf yolunu izləmək baxımından da tədqiqatçılar üçün qiymətli elmi mənbə ola bilər.

Elmi yeniliyi ilə diqqəti cəlb edən "Hüseyn Razinin publisistikası" gənc tədqiqatçı S.Əliyevanın ilk monoqrafiyasıdır. Şübhə etmirik ki, bu monoqrafiya elmi ictimaiyyət tərəfindən maraqla qarşılanacaqdır. Müəllifə bundan sonrakı elmi fəaliyyətində uğurlar arzulayırıq.

**Bibixanım Nağdəliyeva**
*AMEA Naxçıvan Bölməsi*